

Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

İyun 2025

www.ereforms.gov.az
info@ereforms.gov.az

**BİZ HƏM TƏBİİ QAZ, HƏM XAM NEFT, NEFT VƏ NEFT-KİMYA MƏHSULLARI, MÜƏYYƏN HƏCMDƏ ELEKTRİK ENERJİSİNİ İXRAC EDİRİK. ANCAQ QEYD ETDİYİM LAYİHƏLƏR İSTİSMARA VERİLƏNDƏN SONRA BİZ MÜXTƏLİF ELEKTRİK KABELLƏRİ VASİTƏSİLƏ YAŞIL ENERJİNİ DƏ İXRAC EDƏCƏYİK.**



Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən ölkələr sırasındadır və təsadüfi deyil ki, Avropa İttifaqı tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Çünki bu gün Azərbaycan qazı 12 ölkəyə qaz kəmərləri vasitəsilə ixrac edilir. Onlardan 10-u Avropa ölkəsidir və məhz bu göstəriciyə görə, qaz təchizatımızın coğrafi əhatəsinə görə Azərbaycan bu gün dünya miqyasında qabaqcıl yerlərdədir. Əlbəttə ki, bir çox ölkə Azərbaycan qazından istifadə edib öz enerji təhlükəsizliyini təmin edir. Biz həm təbii qaz, həm xam neft, neft və neft-kimya məhsulları, müəyyən həcmdə elektrik enerjisini ixrac edirik. Ancaq qeyd etdiyim layihələr istismara veriləndən sonra biz müxtəlif elektrik kabelləri vasitəsilə yaşıl enerjini də ixrac edəcəyik. Beləliklə, ölkəmizin iqtisadi gücü, geosiyasi önəmi daha da artacaq, - halbuki bu gün də kifayət qədər yüksək səviyyədədir, - və Azərbaycan bu bölgədə sabitlik, inkişaf, tərəqqi məkanı kimi öz rolunu daha da gücləndirəcəkdir.

**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN**
**24 iyun 2025-ci il tarixində Mingəçevirdə "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimindəki nitqindən**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ........ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ........ səh. 15

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ........ səh. 18

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2025-ci ilin yanvar-may ayları ərzində qeyri-neft-qaz ixracı 1,4 milyard ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar-may ayları ərzində yeyinti məhsullarının ixracı 417,7 milyon ABŞ dolları olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın iyun sayını təqdim edib. İcmala əsasən, 2025-ci ilin yanvar-may aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 11.6% artaraq 1,4 milyard ABŞ dolları təşkil edib. Bu dövrdə yeyinti məhsullarının ixracı 14,4% artaraq 417.7 milyon ABŞ dollarına bərabər olub.

2025-ci ilin yanvar-may aylarında ixrac olunan kimya sənayesi məhsulları ötən ilin müvafiq dövrünə nəzərən 46,8 milyon ABŞ dolları və ya 45,9%, şəkər 3 milyon ABŞ dolları və ya 30,1%, pambıq iplik 1,3 milyon ABŞ dolları və ya 14,5%, meyvə-tərəvəz 48 milyon ABŞ dolları və ya 19,1%, qara metallar və onlardan hazırlanan məmulatlar 3,8 milyon ABŞ dolları və ya 11,3% artıb.

Hesabat dövründə aqrar məhsullar üzrə ixrac 17.2%

artaraq 331,2 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac isə 5,9% artaraq 115.6 milyon ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 14% artaraq 446,7 milyon ABŞ dolları təşkil edib.

Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (121,3 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (113.8 milyon ABŞ dolları) ikinci, pambıq (88,8 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşıb.

2025-ci ilin may ayında isə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında pomidor (tomat) (39,1 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq (27.2 milyon ABŞ dolları) ikinci, qızıl (25,9 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşıb.

Cari ilin ilk beş ayında Rusiya Federasiyasına 442,3 milyon ABŞ dolları, Türkiyəyə 251,4 milyon ABŞ dolları, İsveçrəyə 127,9 milyon ABŞ dolları, Gürcüstana 125,5 milyon ABŞ dolları, Ukraynaya isə 76.5 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2025-ci ilin may ayında Rusiya Federasiyasına 121,5 milyon ABŞ dolları, Türkiyəyə 63,7 milyon ABŞ dolları, İsveçrəyə 27,4 milyon ABŞ dolları, Gürcüstana 19.7 milyon ABŞ dolları, Ukraynaya 13,5 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.



# 2025-Cİ İLİN YANVAR-MAY AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025
İXRAC İCMALI
iyun




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN MAY AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



2024 2025




Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN MAY AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2024-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2025 İXRAC İCMALI iyun




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-MAY AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2024-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**446.7 mln $**

2024/2025 **+14%**



**331.2 mln $** — 2024/2025 **+17.2%**

**115.6 mln $** — 2024/2025 **+5.9%**

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI iyun

| | 2025 | 2024 |
|---|---|---|
| Rusiya | 442,9 | 427 |
| Türkiyə | 251,4 | 264,9 |
| İsveçrə | 127,9 | 47,8 |
| Gürcüstan | 125,5 | 95,8 |
| Ukrayna | 76,5 | 39,9 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN MAY AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI iyun




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-MAY AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI iyun

| | 2025 | 2024 |
|---|---|---|
| Qızıl | 121,3 | 45,3 |
| Tomat (pomidor) | 113,8 | 108,6 |
| Pambıq mahlıcı | 88,8 | 99,5 |
| Karbamid | 78,9 | 40,1 |
| Meşə fındığı | 64,8 | 46,6 |
| Metanol (metil spirti) | 47,4 | 37,8 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 43,2 | 46,5 |
| İlkin formalı propilen sopolimerləri (5 PP) | 42,1 | 37,3 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen (PE) | 40,6 | 38,9 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN YANVAR-MAY AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI iyun

2025 2024

| | 2025 | 2024 |
|---|---|---|
| Elektrik enerjisi | 37,4 | 50,2 |
| Xurma | 32,9 | 27,8 |
| Alma | 32,3 | 22,2 |
| İlkin formalı polipropilen | 24 | 24,5 |
| Kartof | 22,5 | 14,5 |
| Polimerləşmədə ilkin formalı maddələr | 21,5 | 34,9 |
| Sement klinkerləri | 21 | 15 |
| Emal olunmamış alüminium ərintiləri | 20,4 | 15,6 |
| Xüsusi kütləsi 0,94 və ya daha az olan ilkin formalı polietilen | 19,2 | 20,2 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2025-Cİ İLİN MAY AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2024-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2025 İXRAC İCMALI iyun

| | 2025 | 2024 |
|---|---|---|
| Tomat (pomidor) | 39,1 | 37,4 |
| Pambıq mahlıcı | 27,2 | 21,2 |
| Qızıl | 25,9 | 13,9 |
| Kartof | 20,7 | 12 |
| Karbamid | 15,4 | 7,1 |
| Polimerləşmədə ilkin formalı maddələr | 11,7 | 1,7 |
| Meşə fındığı | 11,4 | 5,8 |
| Metanol (metil spirti) | 11 | 8,6 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 10,7 | 9,7 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2025-ci ilin yanvar-may ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: “MKT İstehsalat Kommersiya" MMC,"Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" QSC, "Avrora" Məhdud Məsuliyyətli Cəmiyyəti,"P-AQRO" MMC, "Export Stream" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Khan-El" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi"MMC, "Sahdag SY" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Green Tech" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: “SOCAR Polymer” MMC, “AzerGold” QSC, “Azəralüminium” MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları"QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "İstisu" mineral su zavodu MMC, "Azəripək".

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2025-Cİ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

### (ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




**Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi**

# 2025-Cİ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2025 İXRAC İCMALI iyun




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2025-ci ilin yanvar-may aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) 7 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2025-ci ilin yanvar-may aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi(Azərkosmos) tərəfindən dünyanın 40 ölkəsinə 7 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65%-ni təşkil edib. 2025-ci ilin may ayında isə “Azərkosmos” dünyanın 33 ölkəsinə 1,4 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.

Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1,9 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,5 milyon ABŞ dolları ilə Lüksemburq, 345,6 min ABŞ dolları ilə Nigeriya, 300,6 min ABŞ dolları ilə Türkiyə, 298,2 min ABŞ dolları ilə Misir qərarlaşıb.

# 2025-Cİ İLİN YANVAR-MAY AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2025
İXRAC İCMALI
iyun



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi





İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций


Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat